# Molla Nəsrəddin

SATİRİK JURNAL

ON CİLDDƏ

# VII CİLD



Məmmədquluzadə Cəlil Hüseynqulu oğlu ( 1869–1932 ).
Yazıçı, dramaturq, jurnalist, ictimai xadim.
Böyük ədib "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri olmuşdur.



Azərbaycan Milli Elmlər Akademiyası
Nizami adına Ədəbiyyat İnstitutu

# Molla Nəsrəddin

satirik jurnal

ON CİLDDƏ (1906–1931)

# VII CİLD

(1925–1926)

Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2018

### TACİRİN EŞQBAZLIĞI

Qaşların mehrab, yüzün qiblə, xətin eşq ayəsi
Nəşeyi-meydə vurulmuş ləli-nabın mayəsi
Məclisi-vəslindədir aşiqi-zarın qayəsi
"Ey saçın fikri qamu sevdaların sərmayəsi
Olmasın başımdan əksik sərvi-qəddin sayəsi"

Düşmüş əvvəldən bənim tək varlı aşiq payına
Tacirəm qurbandı varım bircə fincan çayına
İzn xəlvət verdigindəndir müdəvvər ayına
"Baş qoyar hər sübhdəm xurşid xaki-payına
Bu səadətdən anın gəldikcə artar payəsi"

Ərşeyi-imanıma sənsən müqərrəb bir mələk
Bən əgər bir həlqeyi-çeşməmsə sənsən mərdümək
Bir kərə didarına qurbandı cümlə mamələk
"Görməmiş məhdi-zəmin bir tifl səntək ta fələk
Dəhr zalın qılmış ətfali-rəyahin dayəsi"

Qətlimə dutma amandır tiği-qəmzəndən silah
Varımı mən yox, sana Allahım etmişdir mübah
Kuyi-yarı məqsədim görməkdi hər şamü sabah
"Sən məlamət kisvəsin zivər qıl ey əhli-səlah
Kim bana bəs muyi-julidəm cünun pirayəsi"

Dinimi əldən alıb sinəndəki limuyi-tər
Gör nə növi sərvisən ki hər yerində var səmər
Ərdəbili Mürtədəm səndən nihan qılsam əgər
"Bərği-ahindən (Füzuli)nin yanar gög bixəbər
Nola əfğanilə bidar olmasa həmsayəsi"

*MÜRTƏD*